# SUVERENLİYİMİZİ TƏMİN EDƏNLƏR



## FƏTİZADƏ FƏTİ AĞAMOĞLAN OĞLU

Şəhid əsgər Fəti Ağamoğlan oğlu Fətizadə 10 iyun 1998-ci ildə Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olmuşdur. Orta təhsilini Beyləqan rayon Gəray Əsədov adına Birinci Şahsevən kənd tam orta məktəbində aldıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq yenidən ordu sıralarına qayıtmış, hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fəti Fətizadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, fərqlənmişdir. Düşmənləri darmadağın edərək Vətən torpaqlarının işğaldan azad olunması uğrunda böyük şücaət və hünər göstərmişdir. Vətən müharibəsi bitdikdən sonra Fəti Fətizadə cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur. Müharibədən sonra Fəti Fətizadə hərbi xidmətini davam etdirirdi. O, KomandoBriqadasının əsgəri olaraq xidmət edirdi.

Fəti Fətizadə 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə sinəsini düşmən güllələrinə sipər edərək böyük rəşadət və igidlik nümayiş etdirmişdir. Əsgər Fəti Fətizadə 19 sentyabr 2023-cü ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə ucalmışdır. Şəhidimizin nəşi doğulduğu Beyləqan rayonunun Birinci Şahsevən kəndində torpağa tapşırılmışdır. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Fəti Fətizadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



## MEHDİZADƏ MİRPAŞA YAQUB OĞLU

Şəhid əsgər Mirpaşa Yaqub oğlu Mehdizadə 4 dekabr 1999-cu ildə Bərdə rayonunun Qayalı kəndində anadan olmuşdur. Orta təhsilini Bərdə rayon Əhliman Qasımov adına Qayalı kənd tam orta məktəbində aldıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bərdə rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə 2020-ci ildən Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq ordu sıralarına qayıdıb hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mirpaşa Mehdizadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə düşmənləri darmadağın edərək böyük rəşadət və hünər göstərmişdir. Ağdərə-Suqovuşan istiqamətində döyüşərkən ağır yaralanmış və kəllə-beyin travması alaraq Saatlı rayon Mərkəzi Xəstəxanasına yerləşdirilmişdir. Əvvəlcə Saatlıda, sonra isə Şəmkir Hospitalında bir aya yaxın müalicə almışdır. Müalicəsi tamamlandıqdan sonra oktyabrın sonlarında yenidən döyüşlərə qatılmışdır. Vətən müharibəsi bitdikdən sonra Mirpaşa Mehdizadə cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Vətən müharibəsindən sonra Mirpaşa hərbi xidmətini davam etdirmişdir. Bir müddət sonra müqavilə müddəti bitsə də Mirpaşa ordudan ayrılmaq istəməmiş və orduda qalaraq hərbi xidmətinə davam etmişdir.

Qəhrəmanımız 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, böyük igidlik göstərərək düşməni geri otuzdurmuşdur.

Mirpaşa Mehdizadə 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Döyüşlərdə sinəsini güllələrə sipər edərək böyük şücaət və igidlik göstərmişdir. Əsgər Mirpaşa Mehdizadə 20 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 21 sentyabr 2023-cü ildə Bərdə rayonunun Qəhrəmanlı kəndində torpağa tapşırılmışdır. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Mirpaşa Mehdizadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



## MƏMMƏDƏLİYEV NİYAZİ SAMİR OĞLU

Şəhid əsgər Niyazi Samir oğlu Məmmədəliyev 7 iyun 2002-ci ildə Qusar rayonunun Gədəzeyxur kəndində anadan olmuşdur. 2008-ci ildə Qusar rayon Gədəzeyxur kənd tam orta məktəbinə daxil olmuş, 2019-cu ildə həmin məktəbdən məzun olmuşdur. Bu illər ərzində 2015-ci ildə Qusar rayonunda yerləşən musiqi məktəbinin tar sinfinə daxil olmuş, 2020-ci ildə həmin məktəbdə musiqi təhsilini başa vurmuşdur. Niyazi 8 iyul 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qusar rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Niyazi Məmmədəliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə düşmənləri darmadağın edərək vuruşmuş, böyük rəşadət və hünər göstərərək fərqlənmişdir. Vətən müharibəsi bitdikdən sonra Niyazi Məmmədəliyev cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Laçının azad olunmasına görə" medalı və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Vətən müharibəsindən sonra hərbi xidmətini davam etdirən Niyazi 12 yanvar 2022-ci ildə hərbi xidmətini tamamlamışdır. Lakin həmin ilin aprel ayında Hərbi Dəniz Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq yenidən xidmətinə davam etmişdir.

Niyazi Məmmədəliyev 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdərə istiqamətində gedən döyüşlərdə sinəsini güllələrə sipər edərək böyük şücaət və igidlik nümayiş etdirmişdir. Əsgər Niyazi Məmmədəliyev 19 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Niyazi Məmmədəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



*Sevindik NƏSİBOĞLU,*
*11-ci sinif şagirdi,*
*şair-publisist, AJB üzvü*